# Biznes əməliyyatları hesabatı

## 2018-ci ilin ilk üç rübünün nəticələri

# Əsas göstəricilər (2018-ci ilin üçüncü rübünün sonu)

**Hasilat**

- **AÇG**
  - neft (min barel/gün) 588
  - neft (milyon ton) 22
- **Sahdəniz**
  - qaz (milyard kubmetr) 8
  - kondensat (milyon ton) 1,8

**Əməliyyat məsrəfləri** (milyon dollar)

- **AÇG** 367
- **BTC** 87
- **Şahdəniz** 418
- **CQBK** 27

**Əsaslı məsrəflər** (milyon dollar)

- **AÇG** 825
- **BTC** 21
- **Şahdəniz** 1140
- **CQBK** 308

# 2018-ci ilin mühüm hadisələri

- AÇG-də 8 neft hasilatı və 3 suvurma quyusu qazılıb - ilk neft hasilatından bəri AÇG-dən ümumi hasilat 3,5 milyard barelə çatıb.
- Şahdənizdən hasilat başlanandan bəri ümumi hasilat qaz üçün 97 milyard standart kubmetrə və kondensat üçün 24 milyon tona çatıb.
- Şahdəniz 2 və Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) layihələrinin 29 may 2018-ci il tarixində Səngəçal terminalında rəsmi açılışı olub.
- Şahdəniz 2 layihəsindən qazın Türkiyəyə ilk kommersiya ixracı plana uyğun şəkildə 30 iyun 2018-ci ildə başlanıb.
- Şahdəniz Bravo platformasından ilk hasilat 30 iyul 2018-ci ildə əldə edilib.
- BP-nin ixtisaslı işçilərinin 90%-nin milli kadrlar təşkil etməsi öhdəliyi yerinə yetirilib.
- Geoloji-kəşfiyyat müqavilə sahələrində ilk quyuların qazılması üçün planlama işləri davam edib.

# Şahdəniz 2 və CQBK-nin Genişləndirilməsi (CQBKG)

Türkiyəyə (ildə 6 milyard kubmetr) və Avropaya (ildə 10 milyard kub metr) qaz satışı müqavilələri:
- Türkiyəyə qazın ilk kommersiya ixracı 30 iyun 2018-ci ildə başladı

CQBK-nın ötürücülük gücünün artırılması:
- Azərbaycan və Gürcüstanda 48 düymlük yeni CQBKG hissəsi
- Gürcüstanda 2 yeni kompressor stansiyası
- İstismar əməliyyatları 30 iyun 2018-ci ildə başladı

Dənizdə körpü ilə birləşmiş iki yeni platforma
- İlk hasilat 30 iyul 2018-ci ildə əldə edildi




Türkiyədə 1900km-lik TANAP (operatoru BP deyil) boru kəməri

Səngəçal terminalında yeni qaz və kondensat emalı qurğuları və qaz ixracı kompressoru – 29 may 2018-ci ildə rəsmi inauqurasiya mərasimi ilə istismara verildi

Suyun 550 metrədək dərinliyində 360km uzunluğunda boru kəmərləri və 125km uzunluğunda sualtı xətlər

İki yarımdalma qurğusu vasitəsilə qazılacaq və tamamlanacaq 26 sualtı quyu:
- 14 quyu artıq qazılıb
- Yatağın şimal cinahında 4 quyu, qərb cinahında 4 quyu, şərq cinahında isə 2 quyu tamamlanıb

# Şahdəniz Bravo platformasının qurğuları



# Genişləndirilmiş Səngəçal terminalı



# Şahdəniz 2 / CQBKG layihələrinin Səngəçal terminalında rəsmi açılışı



# Şahdəniz 2 layihəsindən qazın Türkiyəyə ilk kommersiya ixracı 30 iyun 2018-ci ildə başladı












# Geoloji kəşfiyyat




## Dayaz-sulu Abşeron

- Suyun dərinliyi: 40m-ə qədər
- Saziş 2014-cü ilin dekabrında imzalanıb.
- BP-nin qabaqcıl, patentləşdirilmiş Müstəqil Sinxron Mənbələr (Independent Simultaneous Source with Nodes - ISSNTM) texnologiyası vasitəsilə həyata keçirilən 3-ölçülü tədqiqat proqramı 2016-cı ilin dekabr ayında başa çatıb.
- Tədqiqatda 1300 kvadrat kilometrdən çox ərazidən 3-ölçülü məlumat əldə olunub. Məlumatın emalı 2017-ci ilin 4-cü rübündə tamamlanıb.
- SOCAR-la Perspektivlik haqqında Bildiriş imzalanıb,ilk kəşfiyyat quyusunun planlaşdırılması işləri davam edir.

## Şəfəq-Asiman

- Şahdənizin 60km, Səngəçal terminalının 145km-liyində yerləşir
- Suyun dərinliyi: 600-800m
- Saziş 2010-cu ilin oktyabrında imzalanıb.
- 3-ölçülü seysmik tədqiqat aparılıb. Seysmik məlumatların interpretasiyası da bitib.
- İlk kəşfiyyat quyusunun planlaşdırılması işləri davam edir.

## Blok D230

- Saziş 2018-ci ilin aprel ayında imzalanıb. Seysmik tədqiqat üçün planlama işləri davam edir.

## Qobustan

- BP mövcud sazişdə 61% iştirak payı əldə edib. 2019-cu ildə bir kəşfiyyat quyusu qazılması planlanır.

# 2018-ci ilin 3-cü rübündə yerli ehtiyatlardan istifadə və sosial təşəbbüslər

| **Yerli podratçılar/təchizatçılar** (Azərbaycan-Gürcüstan-Türkiyə regionu)[1] | **Sayı** | **Xərclənib** (milyon dollar) | |
|---|---|---|---|
| Kiçik və orta müəssisələr | 231 | 326 | Ümumi üçüncü tərəf xərclərinin 38%-i |
| Dövlət şirkətləri | 33 | 34 | |
| Yerli tərəfdaşı olan birgə müəssisələr | 18 | 342 | |
| Xarici podratçıların ölkə daxilində məsrəfləri | | 417 | |
| Ölkə daxilində cəmi xərclər[2] | | 1119 | |

1. Yerli ehtiyatların istifadəsi ilə bağlı məlumat ildə iki dəfə verilir. Bu, 2018-ci ilin birinci yarısının sonuna olan məlumatlardır.
2. Bu məbləğ BP-nin yerli şirkətlərlə birbaşa xərclərini və regionda fəaliyyət göstərən xarici şirkətlərlə müqavilələr üzrə yerli işçi qüvvəsinə/xidmətlərə/materiallara çəkilmiş vasitəli (subpodratçı) xərcləri göstərir.

**Azərbaycanda sosial təşəbbüslər**
(ödənilmiş, min dollar)

| | |
|---|---|
| BP və BP-nin əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları | 2 474 |
| BP100% | 804 |
| **Cəmi** | **3 278** |



# Yerli kadrlar

- 2557 nəfər Azərbaycan vətəndaşı BP-də işləyir (müddətli müqavilə əsasında işləyənlər daxildir).
- Azərbaycanda ixtisaslı işçilərin 90%-i yerli kadrlardır

**Azərbaycanda ixtisaslı daimi işçilər**








# Mühüm sosial sərmayə təşəbbüsləri

- Sahibkarlığın İnkişafı Proqramı vasitəsilə yerli səriştələrin yaradılması və biznesin inkişafına dəstək
- Yerli bacarıq və səriştələrin gücləndirilməsinə dəstək - Layihələrin İdarə Edilməsi Məktəbi, kənd təsərrüfatı sahəsində peşə təhsilinin təkmilləşdirilməsi; miqrasiya xidmətinin səmərəli idarə edilməsinə dəstək
- Boru kəmərləri boyunca yerləşən icmalar üçün bilik və bacarıqların yaradılması, məlumatlılığın artırılması və infrastrukturun təkmilləşdirilməsi, gəlirlərin artırılması və biznes inkişafı üçün yeni imkanlar yaradılması proqramları; fiziki məhdudiyyəti olan şəxslər üçün məşğulluq imkanları, fermerlərin kənd təsərrüfatı bacarıqlarının və imkanlarının inkişafı
- Yerli universitetlər, məktəblər və uşaq bağçaları vasitəsilə təhsilə dəstək - «Big Data» Tədqiqat Mərkəzinin yaradılması, orta məktəblər üçün informasiya texnologiyaları (İT) üzrə yeni kurikulum, mühəndislik ixtisası tələbələri üçün biznes təhsili, az təminatlı ailələrdən olan 11-ci sinif şagirdlərinin ali məktəblərə hazırlaşmalarına dəstək, icmalar üçün ingilis dili təlimi;
- Milli Olimpiya və Paralimpiya Komitələri ilə tərəfdaşlıq, milli idmanın, komandaların və idmançıların inkişafına dəstək;
- Mədəni irs proqramlarına dəstək - Qarabağ atları haqqında, virtuoz caz ustası Vaqif Mustafazadə haqqında və Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin son iclası haqqında sənədli filmlər; Təbriz miniatürləri, həmçinin «Əli və Nino» romanının müəllifinin kimliyi və Y.V.Çəmənzəminlinin özü haqqında tədqiqat əsərlərinin nəşri; şərqdə ilk demokratik respublikanın qurucuları haqqında kitabın nəşri





